

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 70 (21.480)

19 aprel 2016-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Aprelin 18-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "BakuBus" Məhdud Məsuliyyətli Cəmiyyətinin ikinci deposunun açılışında iştirak edib.

Dövlətimizin başçısına depoda yaradılan şərait barədə məlumat verilib.

Bakı metrosunun "Koroğlu" stansiyasının yaxınlığında yerləşən depoda 300 avtobusun eyni vaxtda park edilməsi mümkündür.

Prezident İlham Əliyev deponun rəmzi açılışını bildirən lenti kəsib və inzibati binada yaradılan şəraitlə tanış olub.

Binanın foyesində ulu öndər Heydər Əliyevin büstü qoyulub. Depoda işçilərin normal fəaliyyət göstərməsi üçün hər cür şərait yaradılıb.

Nazirlər Kabineti yanında Bakı Nəqliyyat Agentliyinin baş direktoru Vüsal Kərimli Prezident İlham Əliyevə "BakuBus" MMC-nin on aylıq fəaliyyəti barədə məlumat verib.

Prezident İlham Əliyev "BakuBus" MMC tərəfindən gələcəkdə alınması nəzərdə tutulan avtobuslara da baxıb.

Yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyev kollektivə uğurlar arzulayıb.



## Hamiliyə verilmiş ixtisaslarda təhsil alan tələbələrlə görüş keçirilib



*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsi haqqında" Sərəncamının icrası ilə əlaqədar Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi Naxçıvan Dövlət Universitetində və "Naxçıvan" Universitetində təhsil alan tələbələrlə görüş keçirib.*

Naxçıvan Biznes Mərkəzində keçirilən görüşdə tələbələr əvvəlcə yerli istehsal məhsullarından və əl işlərindən ibarət sərgiyə baxıblar.

Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov adıçəkilən sərəncamın əhəmiyyəti, bununla bağlı qarşıya qoyulmuş vəzifələr barədə danışıb. Qeyd edib ki, müasir dünyada hər bir sahədə inkişafın əsas hərəkətverici qüvvəsi ixtisaslı kadr hesab olunur. Ona görə iqtisadiyyatın müxtəlif sahələri üzrə kadrların hazırlanması daim diqqət mərkəzində saxlanılır. Muxtar respublikada da son illər bu sahədə kompleks tədbirlər həyata keçirilir.

"Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş inkişaf strategiyası ölkəmizdə, eləcə də muxtar respublikamızda bütün sahələrin hərtərəfli inkişafına şərait yaradıb. Qəbul edilmiş dövlət proqramları nəticəsində Naxçıvan Muxtar Respublikasında iqtisadi və sosial sahədə fəallığı təcəssüm etdirən makroiqtisadi göstəricilər yüksəlib, iqtisadi infrastruktur qurulub, yeni müəssisələr yaradılıb", – deyən nazir diqqətə çatdırıb ki, 1991-ci ildə muxtar respublika iqtisadiyyatına yönəldilmiş investisiyaların həcmi 1 milyon 794 min 900 manat idisə, bu göstərici ötən müddət ərzində dəfələrlə artaraq 951 milyon 196 min 500 manat təşkil edib. Son 20 ildə muxtar respublika iqtisadiyyatına 6 milyard 699 milyon manat investisiya qoyulub, nəticədə, ümumi daxili məhsul istehsalında özəl bölmənin payı 87 faizi ötüb.

Vurğulanıb ki, həyata keçirilən tədbirlər muxtar respublikada sahibkarlığın inkişafına geniş imkanlar açıb. Bu gün muxtar respublikada fəaliyyət göstərən ixrac potensiallı 51 müəssisədə istehsal olunan ixracyönümlü məhsullar Türkiyə, Ukrayna, Qazaxıstan, Gürcüstan, Belarus, Polşa, Latviya, Litva, Türkmənistan, Tacikistan, Rusiya və İran kimi ölkələrə göndərilir. Muxtar respublikanın xarici ticarət dövriyyəsi 1991-ci illə müqayisədə 224 dəfə artaraq 512 milyon ABŞ dollarından çox olub ki, bunun da 414 milyon ABŞ dolları ixracın, 98 milyon ABŞ dolları idxalın payına düşüb. Bu da xarici ticarətdə yaranmış müsbət saldonun davamlılığını təmin edib.

Sonra tələbələrin İqtisadiyyat Nazirliyinin nəzdindəki müvafiq bölmələrdə iş prosesini əsaslı şəkildə mənimsəmələri ilə bağlı təkliflər müzakirə olunub, suallar cavablandırılıb.

Sonda Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafını əks etdirən slayd nümayiş etdirilib, əyani vəsaitlər paylanılıb.

**Xəbərlər şöbəsi**

## Nəqliyyat xidmətinin səviyyəsi yüksəldilir

***2016-cı ilin ilk rübündə muxtar respublikada nəqliyyatın inkişafı təmin edilmiş, əhaliyə göstərilən xidmətin səviyyəsi yüksəldilmişdir. Bu dövrdə Naxçıvan-Bakı-Naxçıvan marşrutu üzrə sərnişinlərin rahat gediş-gəlişi təmin edilmişdir.***

Cari ilin birinci rübündə 4 avtobus vasitəsilə Bakıya 242 reys edilmiş, 7 min 120 sərnişin daşınmış, Bakıdan Naxçıvana gələn sərnişinlərin sayı isə 8 min 49 nəfər olmuşdur. Həmçinin bu ildən etibarən Naxçıvan-Batumi-Naxçıvan marşrutu da fəaliyyətə başlamış, fevralın 20-də bu istiqamətdə ilk reys baş tutmuşdur.

Şəhərdaxili və rayonlararası nəqliyyatın intensiv və təhlükəsiz fəaliyyətini təmin etmək məqsədilə xətlərdə olan avtobusların texniki sazlığı daim nəzarətdə saxlanılmış, vaxtaşırı lazımi təmir işləri görülmüşdür. Bu dövrdə 139 marşrut xətti üzrə fəaliyyətdə olan 305 avtobus və 488 taksi vasitəsilə rayon mərkəzləri və kəndlərin hamısına gediş-gəliş təmin edilmişdir. Avtovağzalların fəaliyyəti də diqqət mərkəzində saxlanılmış, sərnişinlərə xidmət işi lazımi səviyyədə təşkil olunmuşdur.

Rüb ərzində mütəmadi reydlər keçirilmiş, avtobusların təmizliyinə, sürücülərin geyim formasına və hərəkət qrafikinə, xüsusilə axşam saatlarında şəhərdaxili marşrutların işinə müntəzəm nəzarət edilmişdir.

***Naxçıvan Muxtar Respublikası Nəqliyyat Nazirliyinin mətbuat xidməti***

## Sığorta işi diqqət mərkəzindədir

Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi tərəfindən 2016-cı ilin birinci rübündə sığorta mədəniyyətinin inkişaf etdirilməsi və kütləviliyinin təmin olunması sahəsində ardıcıl tədbirlər görülmüşdür. Muxtar respublikanın təhsil, səhiyyə, mədəniyyət, tikinti və sahibkarlıq subyektlərində icbari və könüllü sığortanın əhəmiyyəti barədə maarifləndirmə tədbirləri aparılmış, istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta işinə diqqət artırılmışdır. Rayonlardakı Dövlət Sığorta agentlikləri isə yerli icra hakimiyyətlərinin nümayəndələri ilə birlikdə kəndlərdə maarifləndirmə tədbirlərini davam etdirmiş, sakinlərə sığortanın növləri, əhəmiyyəti və şərtləri barədə ətraflı məlumat vermişdir.

İcbari sığortanın mühüm növlərindən biri də avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasıdır. Muxtar respublikanın iqtisadi inkişafına paralel olaraq nəqliyyat vasitələrinin sayının durmadan artması bu sahədə işlərin genişləndirilməsini şərtləndirmişdir. Buna görə də Dövlət Yol Polisi əməkdaşları ilə birlikdə mütəmadi reydlər keçirilmiş, nəqliyyat vasitələri icbari sığortaya cəlb olunmuşdur. Ötən dövrdə kənd təsərrüfatı bitkilərinin sığortası ilə əlaqədar vətəndaşlar arasında izahat işi aparılmış, bu sığorta növünün mahiyyəti diqqətə çatdırılmışdır. Görülən işlərin nəticəsidir ki, sahibkarların sığortanın bu növünə olan marağı getdikcə artmaqdadır. Belə ki, 2016-cı ilin birinci rübündə 605 vətəndaşa məxsus kənd təsərrüfatı bitkiləri sığortalanmışdır. Hazırda bu sahədə işlər davam etdirilir.

Əməkdaşların peşəkarlığının artırılması sığorta mədəniyyətinin inkişafında başlıca şərtdir. Buna görə də ötən dövrdə Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi əməkdaşları üçün həftədə 2 dəfə, rayon Dövlət Sığorta agentliklərinin işçiləri üçün isə həftədə 1 dəfə seminarlar keçirilmiş, iştirakçıların sığorta qanunvericiliyi və təlimatlar barədə bilikləri möhkəmləndirilmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi***

***Dünən Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü ilə bağlı tədbir keçirilib. Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova açaraq bildirib ki, YUNESKO-nun Abidələrin mühafizəsi məsələləri üzrə Beynəlxalq Şurasının qərarı ilə 1982-ci ildən etibarən hər il aprelin 18-i dünyada "Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü" kimi qeyd olunur. Bu günün qeyd olunmasında əsas məqsəd insanların diqqətini tarixi abidə və yerlərin qorunmasına yönəltməkdir.***

## Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü qeyd olunub



Nazir ümummilli lider Heydər Əliyevin Naxçıvanın tarixinin və qədim abidələrinin öyrənilməsi sahəsində həyata keçirdiyi tədbirlərdən və qəbul etdiyi qərarlardan danışıb. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində bu sahədə uğurlu nəticələr əldə edilib.

Bildirilib ki, bu gün Naxçıvan Muxtar Respublikasında tarix və mədəniyyət abidələrinin qorunması və bərpası istiqamətində ardıcıl tədbirlər görülür. Ali Məclis Sədrinin 2001-ci il aprelin 26-da imzaladığı "Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" Sərəncamından sonra Gəmiqaya rəsmləri elmi əsaslarla öyrənilib, bu mövzuda onlarla elmi məqalə və kitablar yazılıb. 2005-ci ildə Gəmiqaya abidəsinə beynəlxalq ekspedisiya təşkil edilib, Gəmiqaya ətrafındakı arxeoloji abidələrdə tədqiqatlar aparılaraq etnoqrafik, folklor və onomastik materiallar toplanılıb. Ali Məclis Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il dekabrın 6-da imzaladığı Sərəncam isə muxtar respublika ərazisindəki tarix və mədəniyyət abidələrinin tədqiqində yeni mərhələnin başlanğıcını qoyub. 2006-2014-cü illərdə muxtar respublikada aparılan araşdırmalar zamanı 1202 abidə qeydə alınaraq pasportlaşdırılıb. Ali Məclis Sədrinin 2006-cı ildə "Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü abidəsinin bərpa edilməsi haqqında", 2009-cu ildə "Naxçıvan Muxtar Respublikasında Xalq yaradıcılığı günlərinin keçirilməsi haqqında", 2010-cu ildə "Şahtaxtinskilər Muzeyinin yaradılması haqqında" və "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyinin yaradılması haqqında", 2011-ci ildə "Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin yaradılması haqqında", 2012-ci ildə "Naxçıvan tarixi" çoxcildliyinin hazırlanması və nəşr olunması barədə", 2013-cü ildə "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması haqqında", 2014-cü ildə "Culfa rayonundakı "Əlincəqala" tarixi abidəsinin bərpa edilməsi haqqında", 2015-ci ildə "Gülüstan türbəsi"nin bərpası və tədqiq olunması haqqında" imzaladığı sərəncamlar da tariximizin və mədəni irsimizin öyrənilməsi və təbliği baxımından mühüm əhəmiyyətə malik olan dövlət sənədləridir.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərli "Naxçıvan abidələr diyarıdır" mövzusunda çıxışında muxtar respublika ərazisində mövcud olan qədim tarix və mədəniyyət abidələrindən danışıb. Alim eyni zamanda muxtar respublikada aparılan arxeoloji ekspedisiyalar və yeni tapıntılar haqqında fikirlərini də tədbir iştirakçıları ilə bölüşüb. Tapılan Neolit dövrünə aid arxeoloji abidələr Naxçıvanın çox qədim tarixinin göstəricisidir. Hər il ənənəvi olaraq xarici ölkə alimləri də bu arxeoloji qazıntılarda iştirak edirlər.

Sonra "Əlincəqala" Tarix-Mədəniyyət Muzeyinin direktoru Kamal Gülmalıyev "Əlincəqala – Azərbaycanın əyilməzlik simvolu" mövzusunda çıxış edib.

Tədbirin sonunda iştirakçılar tarix və mədəniyyət abidələrini əks etdirən rəsm, xalçaçılıq nümunələri, ağacişləmə, mis üzərində döymə işlərinə və kitab sərgisinə baxıblar. Muxtar respublikanın rayonlarında da Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü qeyd olunub.

**Əli RZAYEV**




Şəhərləşən kəndlərimiz

# Müasirliyə qovuşan yurd yerlərimizdən biri

***Son illər muxtar respublikamızda aparılan genişmiqyaslı quruculuq tədbirləri, həyata vəsiqə alan, müasir memarlıq üslubu ilə gözoxşayan yeni inzibati və sosial obyektlər şəhərlə kənd arasında fərqi aradan qaldırır, müasirləşən kəndlərimizin sayı illər artır. Quruculuq ərməğanlarından öz nəsibini alan ucqar dağ və sərhəd kəndlərimizdən biri də Culfa rayonunun Ləkətağ kəndidir.***

Ləkətağ kəndində də kompleks quruculuq tədbirləri həyata keçirilib, məktəb üçün yeni bina tikilib. Zirzəmi ilə birlikdə 3 mərtəbədən ibarət olan 144 şagird yerlik məktəb binasında 2-si elektron lövhəli olmaqla, 12 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, hərbi kabinə, kitabxana, idman zalı və müasir tədris avadanlıqları müəllim və şagirdlərin istifadəsinə verilib. Üç mərtəbədən ibarət olan kənd mərkəzində Ləkətağ və Boyəhməd kəndlərini əhatə edən təşkilatların fəaliyyəti üçün hər cür şərait yaradılıb. Rabitə evində quraşdırılan 384 nömrəlik elektron ATS Ləkətağ və Boyəhməd kəndlərində 116 abonentə xidmət göstərir. Burada yaradılan poçt bölməsində internet və danışıq kartlarının, qəzetlərin satışı həyata keçirilir, həmçinin rabitə evində sakinlərə bank xidməti göstərilir. Əvvəllər taxta binada fəaliyyət göstərən feldşer-mama məntəqəsi üçün kənd mərkəzində 3 iş otağı ayrılıb, əhalinin sağlamlığının qorunması üçün lazımi şərait yaradılıb.

Bir mərtəbədən ibarət olan xidmət mərkəzində ərzaq və sənaye mallarının satışı üçün 2 mağaza, ət satışı yeri, bərbərxana və qadın gözəllik salonu yerləşir ki, burada da muxtar respublikamızda istehsal olunan ərzaq və sənaye məhsullarının satışına üstünlük verilir, satılan məhsulların keyfiyyətinə ciddi diqqət yetirilir, ticarət standartlarına uyğun olan məhsulların satışı təşkil olunur.

Naxçıvan şəhərində işləyən və kəndlə sıx əlaqəsi olan insanlardan biri kimi mən də hər həftənin şənbə günləri doğulub boya-başa çatdığım Culfa rayonunun ucqar dağ və sərhəd kəndi olan Ləkətağa gedirəm. Ötən şənbə günü də kəndə getmişdim. Amma bu dəfə Rusiyadan gələn həmyerlimlə.

Çeşməbasar-Boyəhməd avtomobil yolu ilə irəlilədikcə yol kənarında yerləşən Çeşməbasar, Güznüt, Qızılca, Əbrəqunus, Bənəniyar, Saltaq, Əlincə, Xoşkeşin kəndlərində tikilib istifadəyə verilən məktəb binalarını, kənd və xidmət mərkəzlərini, Naxçıvanın yenilməzlik simvolu olan Əlincəqalada aparılan təmir-bərpa işlərini seyr edə-edə çatdıq kəndə. Həmkəndlilərlə həmişəki kimi elə kəndin mərkəzində görüşüb hal-əhval tutduq. Hər kəs xidmət mərkəzindən bazarlıq edir, söhbətləşə-söhbətləşə evə tərəf yollanırdı. Bu vaxt yaxınlıqda oynayan uşaqlardan biri qaça-qaça gəlib, – ata, "Bərəkət"in çöçəsindən, "Ləzzət"in kukuruzundan almısan? – deyib cavab gözləmədən əlini torbaya salıb nəsə götürüb yenə uşaqlara tərəf qaçdı. Başını bulayıb gülümsəyən həmsöhbətim hay-küylə, qəhqəhə ilə oynayan bu qayğısız uşaqları göstərib, – Allah-Taala bu xoş gün-güzəranımızı bizə çox görməsin, – dedi.

1990-cı illərin əvvəllərində bir tikə çörəklə imtahana çəkildik. Çətin günlər yaşadıq. Elektrik enerjisi 4 saat fasilə ilə verilir, təbii qazdan isə söhbət belə, gedə bilməzdi. Çünki Culfa rayonunun digər yaşayış məntəqələri kimi, Ləkətağ kəndinə də təbii qaz çəkilməmişdi. İnsanlar qışın sərt soyuğundan qorunmaq üçün meyvə ağaclarını belə, kəsib yandırmaq məcburiyyətində qalırdı. İndi hər cür şərait yaradılıb. Daimi işığımız, qazımız, abad, rahat yolumuz var. Aylıq müavinətlər, əməkhaqları da vaxtlı-vaxtında ödənilir, təsərrüfatımız da yerində. Əvvəllər kənd soveti Ərəfsə kəndində yerləşdiyindən sakinlər adi bir arayış almaq üçün qonşu kəndə, hər xırda bazarlıqdan ötrü şəhərə getmək məcburiyyətində qalırdılar. İndi kənddə inzibati ərazi dairəsi üzrə nümayəndəlik fəaliyyət göstərir, "Bərəkət"in, "Ləzzət"in maşınları nə lazımdırsa gətirib yığırlar xidmət mərkəzinə. Özü də şəhərdəki qiymətə. Bundan yaxşı nə olar? Daha kəndlinin bir gününü itirib qonşu kəndə, hər xırda bazarlıq üçün şəhərə getməyə ehtiyacı yoxdur. Kəndlinin bir gününü itirməsinin nə demək olduğunu təsərrüfatla əlaqəsi olanlar daha yaxşı bilirlər.

Məktəbin qarşısında ayaq saxlayıb möhtəşəm yenilikləri seyr edən qonağım kəndin yaxın keçmişi ilə bağlı xatirələri vərəqlədi. Divarları yarıyadək nəm çəkmiş, palçıqdan inşa olunmuş bir tikilidə dərs keçirildi. Məktəbimiz natamam orta məktəb olduğundan IX-X sinifləri kəndimizdən 3 kilometr məsafədə yerləşən Ərəfsə kənd orta məktəbində təhsil almaq məcburiyyətində qalırdıq. Yazın yağışı, qışın soyuğunda, üstəlik də, dizə qədər qar yağıb avtomobil yolunu bağlayanda şagirdlər daha çətin vəziyyətə düşürdülər. Ləkətağ kəndinə nə Naxçıvan, nə də Culfa istiqamətində işləyən marşrut avtobusu gəlmədiyindən qoca, cavan – hər kəs bu 3 kilometrlik məsafəni gedib Ərəfsə kəndində marşrut avtobusuna çatmalı idi.

Kənddə rabitə xidməti də "yüksək" səviyyədə idi. Cəmi bir telefon var idi. O da adı indi tarixə çevrilən "Sovet" kolxozunun idarəsində yerləşirdi. Yanı buracaqlı telefon aparatını fırladıb qışqırırdın: "Alo, Əbrəqunus, mənə Culfanı ver". Culfa ilə əlaqə yaratmaq mümkün olurdusa, bu, böyük xoşbəxtlik idi. Onu da deyim ki, bu "xoşbəxtlik" tək-tək adamlara nəsib olurdu. Evində xəstəsi olan insanların da işi müşkülə dönürdü. Kənddə şəxsi minik avtomobili, demək olar ki, yox idi. Zaman keçdi. Naxçıvanda başlanan torpaq islahatı nəinki ölkəmizin digər regionlarında, MDB məkanında belə, nümunə kimi istifadə olundu. Torpaq sahibinə – kəndliyə verildi. Bu həm kəndlinin iş yeri, həm də ruzi-bərəkət mənbəyi oldu. Torpaq əkilib-becərildi, bolluq yaradıldı.

Söhbətləşə-söhbətləşə gəlib çatdıq bizim evə. Yol gəlmişik, bir qismət çörək kəsək, – deyib qonaqları və bizimlə gələnləri evə dəvət etdim. Əvvəlcədən xəbər verdiyimizdən hazırlıq görülmüşdü, süfrə açılmışdı. Balı, yağı, pendiri, şoru, ocağa düzülmüş kababı, tüstüləyən samovarı göstərən Akif, – yüz faiz təbii, yerli məhsullardır, – deyib qonağın üzünə baxıb güldü.

Dostum, kənddə neçə ev olar, – deyib Siyavuşa baxdı. Yetmişdən çox olar, – dedi. Hamısı da qohum olar. Qız verib, qız alarlar sualına Siyavuş özünəməxsus yumorla cavab verdi: – Əvvəllər elə idi. İndi hər kəsin qapısında bir inomarka maşını var, gedib şəhərdən götürüb gəlirlər, – deyib söhbətə bir az şuxluq qatdı. Çay süfrəsi arxasında kəndin keçmişi, bu günü ilə bağlı şirin söhbət etdik. Üzünü Tağı kişiyə tutan qonaq, – maşallah, kəndin girişində oğlun Məhəmməd üçün ikimərtəbəli bina tikmisən. Sağlığına qismət, – dedi.

– Təkcə cavanlar deyil, 70 yaşlı Heydər, Adəm, Sultan kişi, Eynalı müəllim də elə cavanlıq eşqilə qurub-yaradırlar. Köhnə formada olan tikililəri müasirləşdirirlər. Özü də Naxçıvan sementi,Naxçıvan kərpici, digər yerli tikinti materialları ilə.

Bu sözü ilk dəfə eşidən qonağın təəccübləndiyini görən Tağı usta: – Naxçıvanda nəhəng Sement Zavodu tikilib,– dedi. Elə keyfiyyətli sement özümüzdədir.

– İş məsələsi necə, yenə Məhəmməd şəhərdə işləyir?

– Yox, kənddəki rabitə evində ATS qurulub. Orada işləyir. Daha kolxoz idarəsində "Alo, Əbrəqunus" deyib boğazımızı yırtmağa ehtiyac yoxdur. Hər kəsin evində telefonu var. Dünyanın istənilən yeri ilə əlaqə yaratmaq olur.

Sonra kəndin keçmişi ilə bağlı xatirələri vərəqlədik.

Xoş gün-güzəran, əmin-amanlıq rəmzi olan gülüş, təbəssüm üzünüzdən əskik olmasın, – deyib həmkəndlilərimlə xudahafizləşib Naxçıvan şəhərinə üz tutduq. Qonağımın Bakıya bileti var idi. Biznes işi ilə əlaqədar bir neçə gün də paytaxt şəhərimizdə olacaq, sonra isə Rusiyaya yola düşəcəkdi. Əvvəllər çala-çökək yolla 3 saata getmək mümkün olan yolu indi rahat asfalt yolla 40-45 dəqiqəyə getdik. Özü də təzə maşın alan Kərim müəllim kimi döngələri də düzünə gedib dərəyə yuvarlanmadan. Yol nişanlarının tələblərinə əməl etməklə. O an düz 25 il əvvəl dostumun dediyi sözlər yadıma düşdü: "Qardaş, kimin böyrəyində daş varsa, bu kələ-kötür yolla Ləkətağa bir dəfə gedib-gəlsə, həmin daşdan canı qurtarar. Ancaq qorxuram ki, sonra da bel yırtığı, ya da onurğa sıxılmasından ömrü boyu əziyyət çəkə".

– Yollar necədir, daha böyrəyindən daş salmağa ehtiyac yoxdur ki? – deyə soruşdum.

Dostum qəhqəhə çəkib güldü. Əlindəki telefonunu açıb, – bax, bu, uşaqlarımın təhsil aldığı məktəbin önündə çəkdirdikləri şəkildir. Nəhəng Sovetlər İttifaqının paytaxtı Moskva şəhərindən cəmi 60 kilometrlik məsafədə yerləşir. Hələ də məktəblər yeni dərs ilinə hazırlananda əhənglə ağardılır, yollarda isə yamaq yamağın üstündən qoyulur. Blokada şəraitində yaşayan Naxçıvanda şahidi olduğum yenilikləri sözlə ifadə etməyə çətinlik çəkirəm. Bu, möhtəşəm bir yenilikdir. Naxçıvanda daimi yaşayanlar üçün bu yeniliklər qəribə görünməyə bilər. Biz qürbətdə yaşayan, uzun illərdən sonra Vətənə dönüb bu inkişafı görənlər üçün inanılmaz bir yenilikdir.

Artıq maşınımız Naxçıvan Beynəlxalq Hava Limanına yaxınlaşdı. Dostum yenə keçmişi xatırlayaraq dedi: – Bir dəfə Bakıya uçurduq. Qeydiyyatdan keçərkən biletləri cırdılar. Bir az sonra təyyarəyədək qaçhaqaç başladı. Mənimlə gələn qonaqlarla bir tərəfə çəkilib gözlədik. Nəhayət, növbə çatdı, təyyarəyə qalxdıq. Baxdıq ki, təyyarədə nəinki oturmağa, heç ayaq qoymağa belə, yer yoxdu. 27 nəfərlik "YAK-40" təyyarəsinə, yalan olmasın, 50-60 nəfər minmişdi. O dəqiqə bu qaçhaqaçın məhiyyətini anladıq. Sən demə, kim tez yer tutdusa, o qazandı. Nə isə, necə deyərlər, palaza bürün, elinən sürün. Hamı kimi biz də bu saatyarımlıq yolu ayaq üstə getmək məcburiyyətində qaldıq. Ayrı yolumuz yox idi. Əgər bu reysdən imtina etsəydik, günlərlə hava limanında qalardıq. Bir azdan sonra hərəkət edən təyyarə start xəttinə yaxınlaşdı. Təyyarə bələdçisi bir az mehriban səslə, – mehriban olun, 2-3 nəfər də sərnişinimiz var. Onları da götürək, – deyə sərnişinlərə müraciət etdi. "YAK-40" təyyarəsi ilə uçanlar yaxşı xatırlayırlar. Minik üçün trap-filan lazım deyil. Nəhayət, təyyarənin arxa tərəfindəki qapı açıldı, 3 nəfər özünü birtəhər saldı salona. Təyyarə start götürdü. Amma ləngər vura-vura. Ayaq üstə güclə dayanırdıq. Mənimlə yanaşı dayanan bir nəfər narazı səslə öz-özünə deyinərək təyyarənin konstruktoruna iradını bildirirdi: – Qardaş, dizəldirsən, düzəmməli düzəlt də. Sərnişin avtobusu kimi yuxarıda tutacaq qoy. 10-15 metr trubaya da qıymırsan? – deyib üzümə baxdı. İlk dəfə təyyarəyə mindiyini zənn edib, – düz deyirsən, – dedim. Neyləsin, aşıq gördüyünü çağırar. Zavallı elə bilir ki, təyyarədə gediş elə şəhərarası avtobus kimi olur.

*İndi kiçik hava limanının yerində dünyanın məşhur hava limanları ilə bir sırada dayanan möhtəşəm bir hava limanı ucaldılıb. Özü də xidmət tam təhlükəsiz hava laynerləri ilə aparılır. Ulu öndərin vətəni Naxçıvanda dahi şəxsiyyətin görmək istədiyi yeni Naxçıvan qurulub. Quran əlləriniz var olsun, – deyən dostumla qədimliyi saxlanılmaqla yeniləşən, müasirləşən Naxçıvanda yenidən görüşmək ümidi ilə ayrıldıq.*

İstehsal müəssisələri

# "Gəmiqaya Kərpic Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyətində istehsal olunan məhsullara tələbat artıb

***Muxtar respublikamızda yerli xammaldan səmərəli istifadə etməklə daxili bazarın tələbatına uyğun keyfiyyətli məhsullar istehsal edən müxtəlif təyinatlı yeni istehsal müəssisələri yaradılır və ya mütərəqqi texnologiyalar tətbiq olunmaqla fəaliyyəti dayanmış müəssisələrin işi bərpa edilir. Tikinti materiallarına olan tələbatın ödənilməsi istiqamətində də mühüm işlər görülür, tikinti materialları istehsal edən müəssisələr fəaliyyətə başlayır. Təbii ki, bu da tikinti-quraşdırma işlərinin sürətlə aparılmasına rəvac verir.***



"Gəmiqaya Kərpic Kompleksi" Məhdud Məsuliyyətli Cəmiyyəti də son illər Naxçıvan Muxtar Respublikasında həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri nəticəsində yerli tikinti materiallarına olan tələbatın ödənilməsi zərurətindən yaradılmışdır.

Muxtar respublikamızda belə müəssisələrin yaradılmasının nəticəsidir ki, daxili bazar keyfiyyətli yerli tikinti materialları ilə təmin olunur. İldən-ilə genişlənən quruculuq tədbirləri Kərpic Zavodunun istehsal gücünün artırılması və qış mövsümündə də tam gücü ilə işləməsi zərurətini yaratmışdır. Bu məqsədlə hazırlanmış layihəyə uyğun olaraq qurutma sexində Türkiyə istehsalı olan və kompüterlə idarə edilən müasir texnoloji avadanlıqlar quraşdırılmış, kərpiclə dolu diyirəkli arabaların avtomatik hərəkəti üçün dəmir relslər çəkilmiş, istiliklə təminat və nəmliyin aradan qaldırılması üçün xüsusi qurğular qurulmuşdur. Eni 12, uzunluğu 50 metr olan süniqurutma sexi 4 kameradan ibarətdir. Hər kameraya ilkin olaraq 13 min ədəd kərpic yığılır. İlk mərhələdə kərpicin nəmliyi götürülür, ikinci mərhələdə qurutma prosesi başlanır. Rejimə uyğun olaraq, hər 7-15 dəqiqədən bir qapılar avtomatik açılır, hər kameradan kərpic dolu birdiyirəkli araba xaric olmaqla, digəri sexə daxil olur. Ümumilikdə, qurutma sexinin 8 saatlıq iş rejimində gündəlik istehsal gücü 20 min kərpicdir.

Kərpicbişirmə sexində yaranan istilik xüsusi borularla aspirator vasitəsilə sorulub süniqurutma sexinə ötürülür. Bununla həm istilik sisteminin dövriyyəsi təmin edilir, həm də enerji itkisinin qarşısı alınır. Zərurət yarandıqda isə qurutma sexində qurulmuş istilik avadanlığından da istifadə edilir. Qurutma sexinin istifadəyə verilməsi ilə zavodun mövsümdən asılılığı aradan qaldırılmış, müəssisənin fasiləsiz fəaliyyəti təmin edilmişdir. Müəssisənin bir-birini tamamlayan 3 istehsal sahəsində – kərpickəsmə, kərpicbişirmə və qurutma sexlərində istehsal prosesinin təkmilləşdirilməsi və daha müasir texnoloji avadanlıqların alınıb quraşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Layihəyə uyğun olaraq, kəsmə sexində yeni müasir texnoloji avadanlıqlar quraşdırılmış, xammalın iki mərhələdə üyüdülməsi təmin edilmiş, kərpicbişirmə sexində əlavə sobalar tikilmiş, mövcud sobaların daxili odadavamlı kərpiclə üzlənmişdir. Süniqurutma sexində isə Türkiyə istehsalı olan daha bir istilik avadanlığı quraşdırılmışdır. İstehsal olunan məhsulun təbii hava şəraitində qurudulması və saxlanılması üçün əlavə çardaqlar qurulmuş, rəflər hazırlanmış, zavod daxilində yük daşınması üçün yüksək manevr etmək imkanlarına malik müasir texnikalar alınmışdır.

Fəaliyyətə başlayan zaman gün ərzində 25 min ədəd kərpic istehsal olunan zavodda hazırda 45-50 min ədəd kərpic istehsal etmək imkanı yaradılmışdır.

Türkiyədən alınmış müasir texnoloji avadanlıqlar məhsulun keyfiyyətli istehsal olunmasında mühüm rol oynayır. Zavod xammalın yerləşdiyi ərazidə inşa olunduğundan əlavə daşınma xərci çəkilmir, boşdayanma hallarına yol verilmir.

Muxtar respublikamızın sosial-iqtisadi inkişafının və əhalinin maddi rifahının daha da yaxşılaşmasının nəticəsidir ki, zavodda istehsal edilən səsboğucu, radiasiyasız, yayda sərin, qışda isə isti saxlayan keyfiyyətli tikinti materialı kimi kərpicə tələbat ildən-ilə artır. Zavodun istehsal gücünün artırılması artan tələbatın ödənilməsinə və daxili bazarın keyfiyyətli yerli tikinti materialları ilə təmin edilməsinə əlverişli şərait yaratmaqla bərabər, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynamışdır. Müəssisədə çalışan işçilər yüksək əməkhaqqı, xüsusi geyim formaları və servis xidməti ilə təmin olunurlar. Kollektiv xüsusilə tikinti mövsümündə inşaat materialı kimi kərpicə artan tələbatın ödənilməsi üçün hərtərəfli hazırlıq işləri görür, mövcud imkanlardan səmərəli istifadə etməyə səy göstərir.

Səhifəni hazırladı: Kərəm HƏSƏNOV

*Güclü turizm potensialına malik olan muxtar respublikamızda bu sahənin inkişafı istiqamətində kompleks tədbirlər həyata keçirilir. Ötən ayın 18-də muxtar respublika Ali Məclisində Naxçıvan Muxtar Respublikasında turizmin inkişaf etdirilməsi ilə bağlı keçirilən müşavirədə qarşıya qoyulan vəzifələr bu sahədə görülən işlərin daha geniş miqyasda davam etdirilməsinə stimul verib. Həmin müşavirədə muxtar respublika rəhbərinin tapşırıqlarına əsasən, aprel ayının 2-dən hər həftənin şənbə və bazar günləri muxtar respublika məktəblilərinin Ağbulaq İstirahət Mərkəzinə səyahətləri təşkil olunur. Bu layihədə doğma diyarımızın ümumtəhsil məktəblərinin sınaq imtahanlarında yüksək nəticələr göstərən şagirdlər, aztəminatlı ailələrin uşaqları, eyni zamanda sağlamlıq imkanları məhdud uşaqlar iştirak edirlər. Aprelin 2-də Naxçıvan şəhər məktəbliləri, aprelin 9-da isə Şərur rayon ümumtəhsil məktəblərinin şagirdləri bu imkandan yararlandılar.*

# Sağlamlıq imkanları məhdud uşaqların sevinci

## *Ağbulaq İstirahət Mərkəzindən reportaj*



Növbəti dəfə aprelin 16-da muxtar respublikadakı sağlamlıq imkanları məhdud uşaqların və aztəminatlı ailələrin uşaqlarının Ağbulaq İstirahət Mərkəzinə səfəri təşkil olundu. Əvvəlcə onu qeyd edim ki, bu kateqoriyadan olan uşaqların səfərlərinin təşkil edilməsi onların sosial müdafiəsi, cəmiyyətə fəal inteqrasiyası istiqamətində atılan çox əhəmiyyətli bir addım kimi diqqəti cəlb edir. Eyni zamanda bu, onların heç vaxt diqqətdən kənarda qalmadıqlarını sübuta yetirir. Bu, bir daha əminliklə deməyə əsas verir ki, muxtar respublikamızda sağlamlıq imkanları məhdud uşaqların hüquqlarının müdafiəsində çox səmərəli, işlək bir mexanizm artıq formalaşıb.

Uşaqlar Naxçıvan şəhərindən Ağbulaq İstirahət Mərkəzinə aprelin 16-da saat 9[00]-da yola düşdülər. İki avtobusdan ibarət maşın karvanı qısa zamanda Ağbulağa çatdı. Səbəb isə, təbii ki, yol infrastrukturunun mükəmməl olmasıdır. Vaxtilə Şahbuz rayonuna, həmçinin Ağbulaq kəndinə gedən yolun necə bərbad, çala-çuxur olduğunu bir daha xatırladım. O vaxtlar Şahbuza gedib qayıdan insanlar, necə deyərlər, özlərini nə qədər tox tutsalar da, yol yorğunluğunu gizlədə bilmirdilər. Bu gün isə tamamilə başqa bir mənzərənin şahidi oluruq. İnfrastrukturun ən yüksək səviyyədə qurulması həmin rayonun sakinlərini, eyni zamanda qonaqları çox böyük çətinliklərdən, sözün həqiqi mənasında, əzab-əziyyətdən xilas edib. Əgər bu yollar abadlaşmasaydı, Ağbulaqda və digər turizm yerlərində cənnət yaradılsaydı da, onun heç bir əhəmiyyəti, faydası olmayacaqdı. Bu gün gözəl, səfalı, təmiz təbiətimizə həmahəng təşkil edən yollarımızı tamamlayan istirahət mərkəzlərimiz daha da cazibədar görünür. Onlar içərisində Ağbulaq İstirahət Mərkəzinin isə xüsusi yeri var.

Ağbulaqda uşaqları mərkəzin icraçı direktoru Novruz Novruzov qarşıladı. Mərkəzin bütün heyətinin səfərbər olduğu, lazımi hazırlıqların vaxtında aparıldığı ilk baxışdan hiss olunurdu. Bu, daxilən məni sevindirdi. Çünki bu gün inkişafı zərurətə çevrilən turizm sektorunun gələcəyi insanlara göstərilən xidmətin səviyyəsindən birbaşa asılıdır. Ağbulaq İstirahət Mərkəzində apardığım müşahidələrə əsasən deyə bilərəm ki, burada xidmət mədəniyyəti artıq formalaşıb. Mərkəzin bütün əməkdaşlarının ilk anlardan son saatadək uşaqlara göstərdikləri diqqət, qayğı, mehriban münasibət bizim milli xüsusiyyətlərimizin nəticəsi olmaqla yanaşı, həm də xidmət səviyyəsinin göstəricisi idi.

Məktəblilər əşyalarını yerləşdirdikdən sonra turizm mərkəzi ilə tanış oldular. Sonra şagirdlər nahar yeməyinə yollandılar. Naharda məktəblilərə milli mətbəximizin ləziz yeməkləri təqdim olundu. Süfrəni bəzəyən çeşidli yeməklərin dadına-tamına söz ola bilməzdi. Bu məqamda sovet dövründə elə Şahbuz rayonunun Batabat yaylağında "Qaranquş" adlandırılan pioner düşərgəsində olduğum günləri xatırladım. O vaxtlar dünyanın supergüclərindən biri olan Sovetlər Birliyinin məktəbliləri olaraq bizə verilən yeməklərin çeşidlərini yada saldım. Həmin yeməklərin aprelin 16-17-də Ağbulaq İstirahət Mərkəzində uşaqlara təqdim edilən milli yeməklərimizin heç ondabiri qədər də dəyəri yox idi. Kiçik bir müqayisə müstəqilliyimizin, dövlətçiliyimizin əhəmiyyətini ortaya qoyur, dövlətimizin vətəndaşlarına, o cümlədən məktəblilərə göstərdiyi diqqət və qayğını aşkar göstərir.

Nahardan sonra şagirdlər proqrama uyğun olaraq müxtəlif idman yarışlarında iştirak etdilər. Mini-futbol meydançasında keçirilən futbol turnirində "Batabat" ilə "Ağbulaq" komandaları qarşılaşdı. Gərgin keçən qarşılaşmada hər iki komanda üstün oyun nümayiş etdirdi. Sağlamlıq imkanları məhdud uşaqların bu sevincini, əzmkarlıqlarını görəndə insanın qəlbi dağa dönür...

Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramovun məktəblilərə keçdiyi "Naturadan rəsm" mövzusunda ustad dərsi də maraqlı oldu.

Bu vaxt paralel olaraq uşaqlar arasında həm də rəsm müsabiqəsi keçirildi. Ustad dərsi naturadan rəsm çəkməyə həsr olunsa da, balacalar fürsətdən istifadə edərək təxəyyüllərində olanları kağıza köçürdülər. Həmin rəsmlərə baxanda uşaq dünyasının kövrək duyğulara bürünmüş hisslərini duymaq mümkün idi. Müsabiqənin qalibi Şərur rayonunun Danyeri kənd tam orta məktəbinin 11-ci sinif şagirdi Fatma Babayeva oldu. Fatma Ağbulağı çox bəyəndiyini, buradakı gözəl təbiət mənzərələrini də kağıza köçürməyə həvəsli olduğunu dedi.





Ustad dərsindən sonra uşaqlar üçün təşkil edilən çay süfrəsi onların hər birinin ürəyincə oldu. Deyə-gülə çaylarını içən uşaqlar sonra müxtəlif stolüstü oyunlarda iştirak etdilər. Məktəblilər üçün təşkil olunmuş şahmat və dama turniri maraqla qarşılandı.

Şam yeməyindən sonra şagirdlər "Dolu" tammetrajlı bədii filmə baxdılar. Film Qarabağ müharibəsində Vətən uğrunda son damla qanına qədər döyüşən Azərbaycan oğullarının qəhrəmanlıqlarından bəhs edir. Filmin sona çatması ilə birlikdə məktəblilərin istirahət mərkəzində ilk gününün proqramı da yekunlaşmış oldu və hər kəs onlar üçün ayrılmış otaqlara yollandı. Yorğun olsalar da, şagirdlərin hər birinin üzündə təbəssüm, sevinc var idi. Baxışlarından da görünürdü ki, əllərində olsaydı, gecəni də yatmaz, həmin gün tanış olduqları yeni dostları ilə səhərədək oynayardılar...

Səfərin ikinci gününün ilk saatlarında uşaqlar idman müəlliminin nəzarətində bir yerə toplaşaraq Azərbaycan Respublikasının Dövlət Himnini oxudular. Burada səhər gimnastikası ilə məşğul olan uşaqları bir-birindən ləziz səhər yeməkləri gözləyirdi.

İkinci gün uşaqlar üçün "Nuh yurdu" intellektual oyunu təşkil edilmişdi. Əvvəlcə Naxçıvanın tarixinə həsr olunmuş oyunun şərtləri barədə məktəblilərə ətraflı məlumat verildi. Sonra iki komandanın – "Batabat" və "Ağbulaq" komandalarının mübarizə apardığı oyuna start verildi. Burada şagirdlərin fəallığı diqqətimizdən yayınmadı. Görünən o idi ki, Ağbulaqda istirahət edən sağlamlıq imkanları məhdud uşaqlarımızın əksəriyyəti hərtərəfli biliyə, intellektə, dünyagörüşünə malikdirlər. Komandaların hər biri birinciliyə can atır, suallara qısa zamanda cavab verməyə çalışırdı. Gərgin mübarizənin nəticəsində "Ağbulaq" komandası üstünlüyü ələ aldı və intellektual oyunun qalibi oldu.

Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Səyyad Bayramovun növbəti ustad dərsi maraqlı oldu. Rəssam Ağbulağın füsunkar mənzərələrini kətan üzərinə köçürərək etüd janrında çəkdiyi rəsm əsəri haqqında məktəblilərə ətraflı məlumat verdi. Sonra asfalt üzərində rəsm müsabiqəsi keçirildi. Müsabiqə iştirakçıları təbaşirlə rəsmlər çəkməklə öz bacarıq və qabiliyyətlərini nümayiş etdirdilər. Burada da Fatma Babayeva məktəbli yoldaşlarından özünün istedadı ilə seçildi.

Nahar yeməyindən sonra uşaqlar mütaliə ilə məşğul oldular və mütaliə olunan kitabları müzakirə etdilər. Uşaqlar dünya nağılları seriyasından "Azərbaycan nağılları", "Molla Nəsrəddinin lətifələri", "Şeyx Şamil və anası" kitablarını, Azərbaycan uşaq ədəbiyyatının digər nümunələrini böyük həvəslə mütaliə etdilər. Naxçıvan şəhər 17 nömrəli tam orta məktəbin 9-cu sinif şagirdi Vüsal Babayevlə söhbətimiz zamanı dedi ki, o, həmişə dərslərini hazırladıqdan sonra dərsdənkənar kitabları mütaliə etməyi çox xoşlayır. Ona görə də proqramda kitab mütaliəsinə yer ayrıldığını biləndə çox sevinib. Vüsal yaradılan şəraitə görə dövlətimizə minnətdarlığını bildirdi və qeyd etdi ki, burada çoxlu yeni dostlar, həmfikirlər tapıb. Onlarla birlikdə oxuduğu kitabları müzakirə edib.

İstirahət mərkəzinin idman sahəsində keçirilən voleybol və badminton idman növləri üzrə yarışmalar da maraqlı səhnələrlə yadda qaldı. Bundan sonra şagirdlərin Ağbulaq İstirahət Mərkəzinə səfəri başa çatdı.

Zəngin proqramı olan bu səfər hər bir şagirdin ürəyincə oldu. Onlar Ağbulaqda yaxşı istirahət etməklə bərabər, yaradıcılıqlarını da inkişaf etdirdiklərini dedilər. Naxçıvan şəhər Heydər Əliyev adına tam orta məktəbin 9-cu sinif şagirdi Cavid Həsənli, şəhər 2 nömrəli tam orta məktəbin 6-cı sinif şagirdi İnci Rzayeva, Babək rayon Zeynəddin kənd tam orta məktəbinin 10-cu sinif şagirdi Ədalət Muradov, Cəhri kənd tam orta məktəbinin 9-cu sinif şagirdi Orxan Hüseynov və digərləri qeyd etdilər ki, Ağbulaq İstirahət Mərkəzinə ilk dəfədir, gəlirlər. Haqqında eşitsələr də, bu mərkəzin belə gözəl, səfalı yerdə yerləşdiyini təsəvvür etmirdilər. Təbiəti, havası çox gözəldir. Onların sözlərinə görə, Ağbulaqda olduqları müddətdə heç darıxmayıblar. Əksinə, daha çox qalmaq istəyiblər. Çünki, həqiqətən də, bu istirahət mərkəzi çox gözəldir. Hər yer təmiz, səliqəli, havasına da söz ola bilməz. İstirahət üçün çox gözəl şərait yaradılıb. Müxtəlif idman yarışlarının, intellektual oyunların keçirilməsi isə hər bir şagirdin ürəyincə olub. Uşaqlar bu şəraitin yaradılmasına görə dövlətimizə minnətdardırlar.

Valideynlər də layihənin əhəmiyyətini xüsusi vurğuladılar. Naxçıvan şəhərindən Şeyda Rzayeva dedi ki, istirahətdən sonra hər bir uşaqda, o cümlədən öz övladında böyük sevinc, ruh yüksəkliyi hiss etdi. Bu layihə bir daha onu göstərdi ki, muxtar respublikamızda sağlamlıq imkanları məhdud uşaqlara, həmçinin aztəminatlı ailələrin uşaqlarına böyük diqqət və qayğı var, təhsilə böyük dövlət qayğısı göstərilir. Şeyda xanım bu şəraiti yaradanlara dərin minnətdarlığını bildirdi.

Naxçıvan şəhərində məktəbliləri valideynlər və ailə üzvləri, şagirdlərin dostları və rəfiqələri qarşıladılar. Tədbirin təşkilatçıları olan Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi, Gənclər və İdman nazirliklərinin, Naxçıvan Muxtar Respublikası Həmkarlar İttifaqları Şurasının nümayəndələri şagirdlərə uğurlar arzuladılar.

Qeyd edək k, aprel ayının 2-dən start verilən layihə çərçivəsində, ümumilikdə, 405 şagirdin Ağbulaq İstirahət Mərkəzində istirahəti təşkil ediləcək. Layihə hər həftənin şənbə və bazar günləri olmaqla, iyun ayının 5-dək davam edəcək.

**Rauf ƏLİYEV**

---

*Unutsaq, unudularıq*

# Tarixdə iz qoyan *naxçıvanlı təbiblər*

### *Əkmələddin Naxçıvani* Mövlananın hakimi olub

*Tarixi mənbələrdə "Bəy həkim" təxəllüsü ilə tanınan naxçıvanlı Əkmələddinin adına bir çox mənbədə rast gəlmişdim. Diqqətimi çəkən bu şəxsiyyət barədə araşdırma aparmağa nail ola bildim. Naxçıvandan olduğu bir çox tədqiqatçılar tərəfindən dönə-dönə qeyd edilsə də, onun doğum tarixi və Anadoluya gəlib burada yaşamağa başladığı vaxt dəqiq bilinmir.*

Əkmələddin Naxçıvaninin nisbəsi qaynaqlarda tam şəkildə aşağıdakı kimi işlənir: Əkmələddin Müəyyəd bin Əbubəkr bin İbrahim əl Naxçıvani ət-Təbib. Əkmələddin Naxçıvaninin tikdirdiyi məscid və dəfn olunduğu məzar-türbə səlcuqlar dövrünün qiymətli abidələrindən biri kimi qorunub saxlanmaqdadır. Yazılı mənbələrdə Cəlaləddin Rumidən gənc olduğu ehtimal edilən Naxçıvaninin saraya gəlməmişdən əvvəl Kayseri daruşşifasında çalışdığı məlum olur.

AMEA-nın müxbir üzvü Əbülfəz Quliyev öz tədqiqatlarında bu barədə yazır: "Mövlana ilə Əkmələddin Naxçıvani arasındakı dostluq münasibətləri haqqında nisbətən ətraflı məlumatlara, əsasən, o dövrün təzkirəçiləri Ə.Əflaki və Sipehsaların, bu böyük Səlcuq həkiminin tələbəsi olduğu ehtimal edilən Əbubəkr Zakinin əsərlərində təsadüf edirik. Bu mənbələrdə göstərilir ki, Əkmələddin Naxçıvani Mövlanaya yüksək ehtiram və hörmətinin ifadəsi olaraq onun Rum rəssamları tərəfindən çəkilmiş portretlərini böyük məbləğdə pul ödəyərək alırdı. Əkmələddin Naxçıvani dəfələrlə Mövlananı müalicə etmiş və vəfatı zamanı Qəzənfər Təbrizli adlı digər bir saray həkimi ilə birlikdə onun yanında olmuşdur. Əkmələddin Naxçıvani tez-tez Mövlananın böyük oğlu, atasından sonra mövləvilik təriqətinin şeyxi olmuş Bahaəddin Sultan Vələdlə (1226-1312) görüşər, onunla ədəbi və fəlsəfi söhbətlər edərdi. Sultan Vələd böyük təbibə ehtiramını "sən bu dövrdə tibb, hikmət və mərifətdə bir Əflatunsan, Yer üzünü dolanan alimlər sultanısan. Elə bir Bağdad xurmasısan ki, aləmə fəzilət meyvəsi verdin. Bu aləmdə birinin nəsibi tiryək, digərinin nəsibi zəhər olduqca ömrün dövlət, bəxt və səadətlə baqi olsun" cümlələri ilə ifadə etmişdi. Sultan Vələdin əsərində böyük həkimə 41 beytlik bir qəsidə həsr olunmuşdur. Bu qəsidənin ilk iyirmi iki beytinin baş hərflərindən "Ekmeleddin Müeyyed el-Nahcuvani" adı oxunur".

Tarixi məlumatlara görə, o dövrün kiçik Karatay mədrəsəsi də həkimə məxsus olmuşdur. Əkmələddin Naxçıvani dövrünün ən böyük təbibi kimi İbn Sina dühasının heyranı idi. Elə buna görə də o, 1302-ci ildə İbn Sinanın məşhur "Əl-Qanun fit tibb" əsərinə təfsir, şərh yazmışdır.

### Dəməşq şəhərinin baş təbibi olmuş *İbrahim Naxçıvani*

Azərbaycanlı loğmanlar xalq təbabətinin ən yaddaqalan səhifələrini XVI-XVII əsrlərdə yaratmışlar. Bunlardan Məhəmməd Yusif Şirvani, Əhməd Çələbi Təbrizi, İbrahim ibn Zeynalabdin Naxçıvani, Hacı Süleyman İrəvani, Ağa Səid Təbib Təbrizi qədim loğmanların əsərlərindən və təcrübələrindən bəhrələnərək təbabətə dair fundamental əsərləri ilə tibb elmimizi genişləndirmişlər.

Belə təbiblərdən olan İbrahim Naxçıvani haqqında Məhəmmədəli Tərbiyətin "Danişməndani-Azərbaycan" əsərində deyilir: "Zeynalabdin Naxçıvaninin oğlu və hicri-qəməri XI (XVII) əsr təbiblərindəndir. Atası Dəməşq şəhərinə getmiş və orada İbrahim tibb elmini öyrənmiş, Dəməşqin baş təbibi olmuşdur. İbrahim hicri-qəməri 1058 (1648)-ci ildə Dəməşqdə vəfat etmişdir".

*Qeyd edək ki, Mövlana İbrahim tibb elmində mahir və bacarıqlı sənətkar kimi tanınmışdır. O, "təbiblər rəisi" kimi də şöhrət qazanmışdır. Bundan başqa, İbrahim Naxçıvanini fiqh (müsəlman hüququ) elmi də özünə cəlb etmişdir. Mənbələrdə deyilir ki, tanınmış təbib çox söhbətcil, zarafatcıl olmuş, camaat içərisində "Cəməl" təxəllüsü ilə məşhurlaşmışdır. Müxtəlif təzkirələrdə haqqında bəhs olunan dəyərli təbib İbrahim Naxçıvani "Naxçıvani" təxəllüsünü daşıyan bir çox sanballı şəxs kimi adını tarixə yazdırmağı bacarmışdır.*

**Nərgiz İSMAYILOVA**

# Oyuncaqlar uşaqlarımıza necə təsir edir?

***Uşaq oyuncaqları kiçik yaşlarda hər birimizin sahiblənmək istədiklərimizin önündə gəlir. Bəlkə də, buna görədir ki, uşaqların ilk arzuları oyuncaqlar üzərində qurulur. Onlar oyuncaqlarla öz dünyalarını qurur, böyüklərin fəaliyyətini bu kiçik əşyalarla anlamağa və təkrar etməyə çalışırlar. Ancaq oyuncaqlar uşaqlar üçün təkcə əyləncə vasitəsi deyil, həm də onların əqli inkişafında, dünyaya baxış tərzində, estetik tərbiyəsində mühüm yer tutur. Bu mənada, oyuncaqlar uşaqlarımızın gələcək inkişafında mühüm rol oynayır. Bəs bu rol nədən ibarətdir və yaxud oyuncaqlar uşaqlara hansı formada təsir göstərir?***



Uşaqların sevimli əşyaları olan oyuncaqlardan bəhs edərkən, ilk olaraq, ağlımıza onların hazırlandığı materialların tərkibi haqqında suallar gəlir. Bildiyimiz kimi, uşaq oyuncaqlarının böyük əksəriyyəti rezin və plastik materiallardan hazırlanır. Çünki bu tərkibə malik materiallardan hazırlanan məmulatlar küt, kəsici olmaması və çəki baxımından yüngüllüyü ilə seçilir. Lakin rezin və plastik məmulatların özü kimyəvi yolla istehsal olunduğundan onların tərkibində insan orqanizmi üçün zərərli maddələrin olması da hər birimizi düşündürür. Araşdırmalar zamanı məlum olub ki, keyfiyyətsiz oyuncaqla təmas zamanı uşaqlarda ağır metallarla zəhərlənmə və autizm xəstəliyinə tutulma ehtimalı böyükdür. Həkimlərin bildirdiyinə görə, qiyməti çox ucuz olan və rəngi çıxan, xüsusilə plastmas qoxusu verən oyuncaqların alınması təhlükəlidir. Çünki uşaqlar oyuncaqlara yalnız əllə təmas etmirlər, eyni zamanda ağızlarını sürtürlər. Belə olan halda isə ağız yolundan tənəffüs sisteminə zərərli maddələr keçə bilər. Zəhərlənmə, mədə-bağırsaq, sinir sisteminin pozulması baxımından bu oyuncaqlar uşaqlar üçün zərərli və təhlükəlidir. Bəs muxtar respublikamızın daxili bazarında satılan uşaq oyuncaqlarının keyfiyyəti ilə bağlı hansı tədbirlər görülür?

Naxçıvan Muxtar Respublikası Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsindən verilən məlumata görə, muxtar respublikaya idxal olunan uşaq oyuncaqlarının satışı komitənin verdiyi uyğunluq sertifikatı əsasında həyata keçirilir. Belə ki, bu işlə məşğul olan sahibkarların sifarişi əsasında uşaq oyuncaqlarının sertifikatlaşdırılması üçün araşdırma aparılır. Araşdırma zamanı, ilk növbədə, oyuncaqların müşayiətedici sənədləri (xarici uyğunluq sertifikatı, alqı-satqı müqaviləsi, mənşə sertifikatı) yoxlanılır. Müşayiətedici sənədləri yerində olduqda məhsulun texniki normativ-hüquqi aktların tələblərinə uyğun olaraq nümunələr seçilərək Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin sınaq laboratoriyasına təqdim edilir. Sınaqların nəticələri müsbət olduqda laboratoriyanın verdiyi sınaq protokolu əsasında məhsula uyğunluq sertifikatı verilir. Nəticələr mənfi olduqda isə məhsulun satışına qadağa qoyulur, uyğunluq sertifikatının verilməsindən imtina haqqında qərar çıxarılır. Komitədən onu da bildirdilər ki, istehlakçılar ticarət şəbəkələrindən uşaq oyuncaqları alarkən onların uyğunluq sertifikatlarını tələb etsinlər. Eyni zamanda oyuncaqların üzərində "CE" yazılan etiket var ki, bu etiket bütün dünyada oyuncaqların keyfiyyətini göstərən standartdır. Bu etiket onu göstərir ki, məhsul istehlakçıların sağlamlığı, həmçinin ətraf mühit üçün zərərli deyil. "CE Mark" Avropa standartlarına və direktivlərinə uyğunluğun yeganə nişanıdır. Buna görə də valideynlər belə məhsulları alan zaman bu cür uyğunluq nişanının olmasına diqqət etməlidirlər.

Qeyd edək ki, uşaq oyuncaqları bazarı son 10-15 ildə dünyanın ən inkişaf etmiş bazarlarından birinə çevrilib. Ancaq bazar inkişaf etdikcə keyfiyyətsiz məhsulların həcmi də artıb. Buna görə də son illərdə Rusiya, ABŞ və Avropa Birliyi ölkələrində keyfiyyətsiz uşaq oyuncaqlarının idxalına sərt qadağalar qoyulub. Baxmayaraq ki, həmin ölkələrin özündə yerli uşaq oyuncaqları istehsal edən müəssisələr var. Hazırda ölkəmizdə, eləcə də muxtar respublikamızda oyuncaq istehsal edən müəssisələr olmadığından bazarın tələbatı yalnız idxal yolu ilə ödənilir. Araşdırmalarımız zamanı məlum oldu ki, hazırda muxtar respublikamızın ticarət mərkəzlərində istehlakçılara təqdim olunan oyuncaqların böyük əksəriyyətini Çin, Birləşmiş Ərəb Əmirlikləri, Rusiya və Türkiyə respublikalarının məhsulları təşkil edir. Bu sahə ilə məşğul olan sahibkarlarla söhbətdən məlum oldu ki, idxal olunan məhsullarda Çin istehsalı olan uşaq oyuncaqları daha çox paya malikdir. Söhbət zamanı üzərində keyfiyyət nişanı olan və Çində istehsal edilmiş xeyli çeşiddə uşaq oyuncaqlarını da bizə göstərdilər. Müsahiblərimiz vurğuladılar ki, əvvəllər bu sahədə ciddi nəzarət olmayıb, nəticədə, keyfiyyətsiz, xüsusi qablaşdırması olmayan uşaq oyuncaqları bazarda çox yayılıb. İndi isə vəziyyət fərqlidir. Ancaq mütəxəssislərin bildirdiyinə görə, istənilən halda uşaqlara oyuncaq seçərkən keyfiyyət nişanının olmasına və məhsulun qablaşdırılmasına diqqət yetirmək lazımdır.

Məsələnin digər tərəfi isə ondan ibarətdir ki, biz hələ də uşaqlarımızı fərqli dəyərlərin təsiri altında böyütməyə məcburuq. Əslində, bu, yeni mövzu deyil. Hazırda satılan oyuncaqların xarici ölkələrin istehsalı olan cizgi filmlərinin təbliğatçısı olduğunu mətbuat dəfələrlə işıqlandırıb. Həmin cizgi filmlərinin əksəriyyəti əcnəbi multiplikasiya şirkətlərinin istehsalı olduğundan bu tip filmlərin bir çoxunda şiddət, işgəncə, qorxu və etikadan kənar səhnələrə yer verilir, obrazların dilindən bayağı ifadələr işlədilir. Belə cizgi filmləri uşaqlara bəzən siyasi, bəzən manipulyativ, bəzən isə reklam xarakterli informasiya daşıyırlar. Hafizə baxımından ətraf aləmdə baş verənləri tez qavrayan uşaqlar filmlərdə gördüklərini real həyatda tətbiq etməyə çalışır, özünü "qəhrəmanına" bənzədir və onu təkrarlamağa meyilli olurlar. Bu isə çox vaxt xoşagəlməz nəticələrə gətirib çıxarır.

Bir nüansı nəzərdən qaçırmayaq ki, hazırda uşaq oyuncağı kimi baxdığımız hər kiçik əşya bir çox böyük şirkətlərin planlı biznes məntiqi və peşəkar marketinq idarəetməsi üzərində qurulub. "Tom və Cerri", "Maşa və Ayı", "Barbi" kimi brendlər öz azyaşlı müştərilərini mavi ekrandan "hədəflədikdən" sonra bazara çıxıblar. Və bu gün dünyanın əksər ölkələrində bu brendlərin nümunələrinə (oyuncaqlarına) milyonlarla pul xərcləmək istəyən istehlakçı kütləsi var. Beləliklə, görünən odur ki, daxili bazarda milli dəyərlərimizi təbliğ edən oyuncaqlarımız istehsal olunmayanadək, "Cırtdan", "Tıq-tıq xanım" kimi nağıllarımızın üzərində güclü brend idarəetməsi qurulmayanadək əcnəbi dəyərlər uşaqlarımız və onların gələcəyi üçün təsirsiz ötüşməyəcək.

**Səbuhi HƏSƏNOV**

***Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində voleybol üzrə kişilər arasında muxtar respublika birinciliyinə start verilib.***

## Voleybol üzrə açıq birinciliyə start verilib



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Voleybol Federasiyasının birgə təşkil etdiyi birincilikdə şəhər və rayonların 8 komandası mübarizə aparır.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra birinciliyin açılış mərasimində çıxış edən Gənclər və İdman Nazirliyi Aparatının Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov bildirdi ki, hər il mütəmadi olaraq təşkil edilən bu yarışın əsas məqsədi istedadlı voleybolçuları üzə çıxarmaqdır. Azarkeşləri əmin edə bilərik ki, açıq birincilikdə kifayət qədər maraqlı oyunlara şahidlik edəcəklər.

Federasiyanın sədr müavini Aydın Mirzəyev isə çıxışında keçirilən birinciliyin reqlamenti haqda idmançıları məlumatlandırdı. Vurğuladı ki, son illər muxtar respublikada gənclərin voleybola marağı həddindən çox artıb. İstər şəhər, istərsə də rayonlarda bu növün təbliği üçün federasiya və nazirlik müəyyən addımlar atır.

Açıq birinciliyin reqlamentinə gəlincə, 8 komanda iki yarımqrupda – "A" və "B" qruplarında mübarizə aparırlar. Üç gün davam edəcək birinciliyin "A" qrupunda "Kəngərli", "Naxçıvan", "Şahbuz" və "Ordubad" komandaları ilk iki pillə uğrunda meydana çıxacaqlar. "B" qrupunda isə "Şərur", "Sədərək", "Culfa" və "Babək" komandaları qalibi müəyyənləşdirməyə çalışacaqlar. Qrup mərhələsində ilk iki pilləni tutan komandalar yarımfinala vəsiqəni təmin edəcəklər. Bu mərhələdə "A" qrupunun lideri "B" qrupunda ikinci olan komanda ilə, "B" qrupunun lideri isə "A" qrupunun ikincisi ilə finalçını müəyyənləşdirəcəkdir.

Naxçıvan Muxtar Respublikası Voleybol Federasiyasının dəstəyi ilə "Ordubad", "Sədərək" və "Şərur" komandalarının voleybolçuları birincilik başa çatana kimi Naxçıvan şəhərindəki "Qrand" oteldə yerləşdiriliblər.

**Ceyhun MƏMMƏDOV**

## Məhdud fiziki imkanlı şəxslərə səyyari xidmət göstərilib

***Muxtar respublikamızda məhdud fiziki imkanlı şəxslərin sağlamlıqlarının qorunması, o cümlədən müxtəlif texniki-bərpa vasitələri, protez-ortopediya məmulatları ilə təmin edilməsi daim diqqət mərkəzində saxlanılır.***

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən məhdud fiziki imkanlı şəxslərə səyyari protez-ortopedik bərpa xidməti təşkil edilməsi bu tədbirlərin davamı olub. Tibbi-texniki heyət məhdud fiziki imkanlı 109 şəxsin, o cümlədən 1 ahılın, sağlamlıq imkanları məhdud 12 uşağın evlərinə gedərək onları ehtiyac duyulan müxtəlif protez-ortopedik məmulatlar və reabilitasiya vasitələri ilə təmin edib. Belə ki, 10 nəfərdən sifarişlər qəbul edilib, 5 nəfərə müxtəlif protez-ortopedik məmulatlar, eyni zamanda 5 nəfərə tibbi məsləhət, həmçinin 89 nəfərə texniki-bərpa vasitələri, o cümlədən 2 nəfərə əlil arabası, 15 nəfərə eşitmə aparatı, 72 nəfərə isə müxtəlif növ əsalar verilib.

Qeyd edək ki, səyyari xidmət il ərzində davam etdiriləcək.

## İdmançıların tarixi abidələrlə tanışlığı davam etdirilir

***Yeniyetmə və gənclərin tarixi abidələrlə daha yaxından tanış olması, tariximizin unudulmaması və gələcək nəsillərə çatdırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Karate-do Federasiyasının bir qrup idmançısının "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinə ekskursiyası təşkil olunub.***

Karate-do Federasiyası ilə Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkil etdiyi tədbirdə 30-dan çox idmançı iştirak edib. Muzeyin bələdçisi Şahnaz Əliyeva idmançılara muzey haqqında geniş məlumat verib. İdmançılar muzeyin eksponatları, sonra isə Nuh Peyğəmbərin məzarüstü abidəsi ilə tanış olublar.

İdmançıları maraqlandıran suallar muzeyin bələdçisi tərəfindən cavablandırılıb.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən 29 aprel 2016-cı il tarixdə güzəştli hərraca çıxarılacaq əmlaklar haqqında məlumat

| Sıra №-si | Hərraca çıxarılacaq əmlak | Əmlakın hüquqi ünvanı | Əmlakın ilkin satış qiyməti (manat) | Əmlakın (15 faiz) güzəştli satış qiyməti (manat) | İlkin satış qiymətinin 5 faiz həcmində hesablanmış behin məbləği (manat) |
|---|---|---|---|---|---|
| 1. | Kəngərli rayon Qarabağlar kəndində yerləşən, 256,6 kv.m yaşayış sahəsi, 221,8 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Kəngərli rayon Qarabağlar kəndi | 27000 | 22950 | 1350 |
| 2. | Kəngərli rayon Qarabağlar kəndində 0,2373 ha torpaq sahəsində yerləşən 1 mərtəbəli, 2 otaqlı, 50,31 kv.m yaşayış, 211,61 kv.m köməkçi sahədən ibarət fərdi yaşayış evi | Kəngərli rayon Qarabağlar kəndi | 22500 | 19125 | 1125 |
| 3. | Naxçıvan şəhəri, K.Talıblı küçəsi, ev 1, 2 ünvanında yerləşən mənzil | Naxçıvan şəhəri, K.Talıblı küçəsi | 25232 | 21447,2 | 1261,6 |

Hərracda qanunvericiliyə müvafiq olaraq alıcı hesab edilən, sifarişi və digər zəruri sənədləri təqdim etmiş hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

Hərraca çıxarılan əmlakların ilkin satış qiymətinin 5% məbləğində beh "Kapital Bank" ASC-nin Kəngərli rayon filialında olan AZ37NABZ01350100000000001944 nömrəli və "Beynəlxalq Bank" ASC-nin Naxçıvan filialının AZ03NABZ01350100000000005944 nömrəli hesabına 25 aprel 2016-cı il tarixədək ödənilməlidir.

Hərraclarda iştiraka görə hərrac iştirakçılarından qanunvericilikdə müəyyən edilmiş iştirak haqqı Auksion Mərkəzinin Maliyyə Nazirliyindəki №AZ 21 NABZ 12360100000000005944 nömrəli hesabına köçürülür.

Sifarişlər Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində (Atatürk 42) qəbul olunacaqdır. Məlumat dərc olunduğu gündən auksionda iştirak etmək arzusunda olan hüquqi və fiziki şəxslər satışa çıxarılan müəssisənin sənədləri ilə Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində tanış ola bilərlər.

Auksionda iştirak etmək üçün komissiyaya aşağıdakı sənədlər təqdim olunur:

*- Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzi tərəfindən təsdiq edilmiş formada sifariş;*
*- kommersiya banklarına ödəniləcək behin qəbzi;*
*-hüquqi şəxslər üçün təsis sənədlərinin müəyyən olunmuş qaydada təsdiq edilmiş surəti;*
*- fiziki şəxslər üçün şəxsiyyəti təsdiq edən sənədin surəti.*

***Hərrac 29 aprel 2016-cı il tarixdə, saat $11^{00}$-da Naxçıvan Muxtar Respublikası Auksion Mərkəzində keçiriləcək.***

**Əlavə məlumatı Auksion Mərkəzindən ala bilərsiniz.**
**Əlaqə telefonu: 545-01-38**

ŞƏRQ qapısı
Baş redaktor:
TURAL SƏFƏROV

Ünvan: AZ-7000,
Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 298